# DÜNYA

№ 21 NOYABR 2017



Xəzər Universiteti
Dünya Məktəbi
Aylıq dərgi




BEYNƏLXALQ TƏLIM STANDARTLARINA ƏSASLANAN DİL KURSLARI

- İNGİLİS DİLİ
- FRANSIZ DİLİ
- ALMAN DİLİ
- RUS DİLİ

- Abituriyent hazırlığı
  Yeni qəbul modelinə uyğun
  IX, X siniflər
- İxtisas qrupları üzrə
  XI siniflər
- İbtidai və yuxarı sinif şagirdlərinə fənlər üzrə dəstək
- Məktəbəqədər təhsil
  4–5 yaş
- Məktəblilər üçün beynəlxalq tədris proqramlarına hazırlıq
  ibtidai
  orta məktəb
  IB diplom proqramları üzrə
  IELTS, SAT, IB kursları
- Respublika və beynəlxalq olimpiadalara hazırlıq
  riyaziyyat, fizika, kimya, biologiya, informatika

XƏZƏR UNİVERSİTETİ
DÜNYA TƏHSİL MƏRKƏZİ

# DÜNYA TƏHSİL MƏRKƏZİ



ƏLAVƏ
MƏLUMAT ÜÇÜN:

Əcəmi Naxçıvani 9
dunyaschool.edu.az
info@dunyaschool.az
(+994 12) 563 59 40 /47/48
(+994 55) 632 95 28

# DƏRNƏKLƏR

- NİTQ MƏDƏNİYYƏTİ
- CONVERSATİON CLUB
- MÜALİCƏVİ FİTNES VƏ ÖZÜNÜMÜDAFİƏ
- KUNG FU/ TAİ CHİ (CHİ ENERJİSİ)
- MÜALİCƏVİ GİMNASTİKA
- ZƏKA OYUNLARI VƏ MENTAL ARİFMETİKA
- EBRU ƏL SƏNƏTLƏRİ
- RƏSM
- ŞAHMAT
- KARATE-TAEKVANDO
- RƏQS
- PİANO
- GİTARA
- FUTBOL
- BASKETBOL
- ÜZGÜÇÜLÜK
- KULİNARİYA
- PSİXOLOGİYA - ÖZÜNƏİNAM VƏ KONSENTRASİYA
- DEKORATİV TƏTBİQİ SƏNƏT
- KODİNG (PROQRAMLAŞDIRMA) -ROBOTİX
- FOTO-VİDEO ÇƏKİLİŞ VƏ MONTAJ

# DÜNYA MƏKTƏBİNİN SAYTI













**www.dunyaschool.az**

# BU NÖMRƏDƏ № 21


Baş redaktor
NAİLƏXANIM İSAYEVA
Baş redaktorun müavini
AFAQ QƏMBƏROVA
Redaksiya heyəti
MƏRUFƏ MƏDƏTLİ
LEYLA CƏBRAYILOVA
RƏNA HƏSƏNOVA

Rəssam
MİR RAFİQ ƏBDÜLRƏHİMOV
Dizayner
ÜLKƏR KƏRİMOVA
Foto
NİGAR FƏRMANOVA
NURANƏ HƏSƏNOVA





ÜZ QABIĞINDA
FƏRƏH HACIZADƏ
Bağça və məktəbəqədər hazırlıq




27
SUMQAYITDA
BİR GÜN





20
AZƏRBAYCAN UŞAQLARININ
IV ÜMUMRESPUBLİKA FORUMU





19
MÜSTƏQİL İKİDİLLİ MƏKTƏBLƏRİN
"MƏKTƏBƏ GEDƏN YOL" ADLI
BEYNƏLXALQ KONFRANSI

| | | | |
|---|---|---|---|
| BAYRAQ GÜNÜ | 6-8 | 30-31 | ŞAGİRDİN SÖZÜ-GƏLƏCƏYİN ÖZÜ |
| BEYNƏLXALQ TOLERANTLIQ GÜNÜ | 9 | 32-36 | TƏQVİM |
| KSENOFOBİYA VƏ TOLERANTLIQ | 10-11 | 38-39 | BARON MÜNHAUZEN |
| ƏSRİN BƏLASINA "YOX" DEYƏK! | 12-13 | 40-43 | EKSKURSİYALAR |
| IB NEWS | 14-16 | 44-47 | WHO WE ARE |
| MƏKTƏB XƏBƏRLƏRİ | 18-19 | 48 | MƏKTƏB XƏBƏRLƏRİ |
| AZƏRBAYCAN UŞAQLARININ | | 49-51 | SÖZ ŞAGİRDLƏRİNDİR |
| IV ÜMUMRESPUBLİKA FORUMU | 20-21 | 54-55 | PAYIZ BAYRAMI |
| ГАРРИ ПОТЕР И ФИЛОСОФСКИЙ КАМЕНЬ | 22-23 | 56 | MASTERCLASS |
| SUMQAYITDA BİR GÜN | 24-27 | 57 | ДЕТСКИЙ ПСИХОЛОГ |
| ŞAHMAT VƏ HƏYAT | 28-29 | 58-59 | BAĞÇA VƏ MƏKTƏBƏQƏDƏR HAZIRLIQ XƏBƏRLƏRİ |



# 9 NOYABR AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT BAYRAĞI GÜNÜ

Yetmiş ildə yağıların əyib bükdü belini,
O əzablı hekayətin yandırdıqca elini,
Bağladılar min bir yerdən qıfıl ilə dilini…
Haqq, ədalət döyülsə də bükülmədi, bayrağım,
Millət qanı nahaq yerə tökülmədi, bayrağım.



## Bayraq müqəddəsdir!
## O xalqın bayrağıdır!

**Müqəddəslik duyğusu, VƏTƏN sevgisi, milli qürur - bayram havasına qarışmışdı bu gün...**

**DÜNYA Məktəbinin şagirdlərdən ibarət musiqi xoru EHTİŞAMLI AZƏRBAYCAN BAYRAĞININ bayramına sözləri Sübhanə Nəcib və musiqisi Nailə Mirməmmədlinin olan "AZƏRBAYCAN" mahnısının ifası ilə qoşuldu.**

**Siniflərdə bayraq haqqında danışıldı, müstəqilliyimizin rəmzlərindən biri sayılan, sələflərimizin bu dəyərli yadigarının tarixi anıldı...**

**Məktəbin radio və video qovşağından şeirlər səsləndirildi, məktəb xorunun videosu nümayiş etdirildi, akt zalında böyük tədbir keçirildi. Müəllim və şagirdlərin bu mövzuda çıxışları dinlənildi.**





Üçrəngli bayrağıma baxarkən qürur, sevinc hissi duyuram!

Ey üçrəngli bayrağım, sən mənim iftixarımsan!

Səni harada görsəm - istər öz vətənimin, istərsə də vətənimin hüdudlarından kənarlarda,

hansı səmada dalğalanırsan,
dalğalan – bu misralar
ürəyimdən keçir:
Bu üçrəngli bayrağım
Gözümün işığıdır.
Azadlıq yağışından
Doğan göyqurşağıdır...
Millətimin oğullarına cəsarət,
əzmkarlıq verən də sənsən!
Şəhidləri son mənzilə yola
salan da sənsən!
Azərbaycan səmasında əzəmətlə
dalğalan, əziz bayrağım!
Dalğalan ki, qələbəmiz səninlədir!



## AZƏRBAYCAN SƏMASINDA ƏZƏMƏTLƏ DALĞALAN, ƏZİZ BAYRAĞIM! DALĞALAN Kİ, QƏLƏBƏMİZ SƏNİNLƏDİR!

**MƏRYƏM QURBANOVA**
**V sinif**





**AQŞİN MƏMMƏDOV**
**BƏHRAM MİRZƏZADƏ**
**V sinif**

9 noyabr 2017-ci il Dövlət Bayrağı günü və 2017-ci il İslam Həmrəyliyi ili münasibətilə “Bayrağımız bayraqlar içində” adlı əl işlərindən ibarət müsabiqədə iştirakına görə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və F.Köçərli adına Respublika Uşaq Kitabxanası tərəfindən təltif olundular.

# 16 NOYABR

## BEYNƏLXALQ TOLERANTLIQ GÜNÜ

## 1995-Cİ İLDƏ

## YUNESKO-NUN 50 İLLİYİ MÜNASİBƏTİLƏ

## TƏSİS EDİLİB.

Məqsəd qurumun da nizamnaməsində qeyd olunduğu kimi, dünyada hamını bir-birinə dözümlülük nümayiş etdirərək mehriban qonşular kimi yaşamağa çağırışdır. Azərbaycan indi bütün dünyada həm də tolerantlıq örnəyi kimi tanınır və indi dünyanın nadir ölkələrindəndir ki, burada bütün millətlər, bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Ölkəmizdə dini və milli dözümlülük, tolerantlıq yüksək səviyyədədir.

Tolerantlıq insanlar və icmalar arasında qarşılıqlı hörmətin bünövrəsidir və ortaq dəyərlər ətrafında vahid qlobal cəmiyyətin qurulması üçün həyati əhəmiyyət kəsb edir. Bu bir məziyyət, mənəvi keyfiyyətdir, lakin hər şeydən əvvəl tolerantlıq bir əməldir – başqalarına əlini uzatmaq və mövcud fərqlilikləri maneə kimi deyil, dialoq və anlaşmaya dəvət kimi qəbul etməkdir. Bəli, Tolerantlıq insanlar arasında körpülər salmaqla və ünsiyyət üçün yollar açmaqla bu çətinliklərin bir qisminə cavab verir. Tolerantlıq bütün təcrübə və dünyagörüşlərin bərabər qəbul edilməsi deyil. Əksinə, onun dəyəri universal insan hüquqları və əsas azadlıqlar haqqında məlumatlılıq və hörməti təlqin etməkdədir. Tolerantlıq Birləşmiş Millətlər Təşkilatının məğzini təşkil edir.

Tolerantlıq öz-özünə meydana gəlmir. O, öyrədilməli, yetişdirilməli və başqalarına ötürülməlidir. Vahid bəşəriyyət insan müxtəlifliyinin möhtəşəm zənginliklərinə qarşılıqlı hörmət əsasında birlikdə yaşamaq və birgə işləmək deməkdir.



# KSENOFOBİYA VƏ TOLERANTLIQ











*Azərbaycan Respublikasının Prezidenti **İlham Əliyev :***

**“AZƏRBAYCAN QAFQAZIN İŞIQ SAÇAN MAYAKIDIR, TOLERANT ÖLKƏDİR VƏ ONUN NURU DÜNYANIN HƏR BİR TƏRƏFİNƏ YAYILIR, İNSANLIĞA YOL GÖSTƏRİR.”**



## 16 NOYABR BEYNƏLXALQ TOLERANTLIQ GÜNÜDÜR.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2017-ci ilin “İslam Həmrəyliyi İli” elan olunması və göstərilən istiqamətdə insanlara düzgün informasiyaların çatdırılması, maarifləndirilməsi məqsədi ilə tədbirlər həyata keçirilir.

Məqsəd İslamdan başqa digər mövcud dinlərə hörmətlə, tolerant yanaşmağı təbliğ etmək, ölkəmizin, xalqımızın multikultural dəyərlərini dünyaya tanıtmaqdır.

Elə bu məramla da Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun və Binəqədi Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə DÜNYA Məktəbində tədbir keçirildi.













Tədbirdə İndoneziya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Hüsnan Bey Fənani, Azərbaycan Respiblikasının Prezidenti yanında Bilik Fondunun İcraçı Direktoru Oktay Səmədov, Binəqədi Rayon İcra Hakimiyyəti Başçısının müavini Aygün Əliyeva,Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici Əlaqələr şöbəsinin müdüri Nicat Məmmədli, Fondun Beynəlxalq Layihələr Sektorunun müdiri Rauf Həsənov və digər qonaqlar iştirak etdilər.

DÜNYA Məktəbinin şagirdləri ilə “Ksenofobiya və Tolerantlıq” mövzusunda debat keçirildi, hər iki ölkənin multikulturalizm və tolerantlıq siyasəti ilə bağlı müqayisəli fikir mübadilələri aparıldı.

Tədbirdə çıxış edənlər qeyd etdilər ki, tolerantlıq ideyalarının gücləndirilməsi və eyni zamanda ksenofobiyaya qarşı mübarizə üçün mümkün imkanlardan istifadə vasitələri bu gün dünyada ən aktual mövzulardandır. Şagirdlər arasında müzakirələrin aparılması da gələcək nəslin bu istiqamətdə tərbiyə olunması, xalqın belə qədim, dəyərli ənənəsinin nəsildən-nəslə ötürülməsi baxımından olduqca əhəmiyyətlidir.

**...MƏQSƏD İSLAMDAN BAŞQA DİGƏR MÖVCUD DİNLƏRƏ HÖRMƏTLƏ, TOLERANT YANAŞMAĞI TƏBLİĞ ETMƏK, ÖLKƏMİZİN, XALQIMIZIN MULTİKULTURAL DƏYƏRLƏRİNİ DÜNYAYA TANITMAQDIR...**



Azərbaycan Respublikası Prezidentinin

24 iyun 2013-cü il tarixli Sərəncamı ilə sayca 4-cü olan

**“NARKOTİK VASİTƏLƏRİN, PSİXOTROP MADDƏLƏRİN VƏ ONLARIN PREKURSORLARININ QANUNSUZ DÖVRİYYƏSİNƏ VƏ NARKOMANLIĞA QARŞI MÜBARİZƏYƏ DAİR 2013-2018-Cİ İLLƏR ÜÇÜN DÖVLƏT PROQRAMI”**

təsdiq edilmişdir.

**Sərəncam əsasında - narkomaniyaya aludəçiliyin qarşısını almaq, gənclər arasında narkomanlığın yayılmasının maarfləndirmə yolu ilə qarşısını almaq, narkomanlığa düçar olan şəxslərin yenidən sağlam həyata qaytarmaq məqsədi ilə respublikamızda genişmiqyaslı tədbirlər həyata keçirilir.**







# NARKOMANİYAYA, ƏSRİN BƏLASINA YOX DEYƏK!

Bu məqsədlə DÜNYA Məktəbində mövzuyla əlaqəli tədbir təşkil edildi.
Tədbirdə Binəqədi Rayon Polis İdarəsinin rəisi, polis-polkovniki Namiq İsmayılov, müavini, **“NARKOTİKLƏRLƏ MÜBARİZƏ”, “AZYAŞLILARLA İŞ ÜZRƏ İŞİN TƏŞKİLİ”** bölmələrinin əməkdaşları, sahə inspektorları iştirak etdilər.



Polis-polkovniki Namiq İsmayılov yuxarı sinif şagirdlərinin qarşısında çıxış edərək narkotik maddələrə aludəçiliyin törətdiyi fəsadlardan, bunlardan necə qorunmağın yollarından danışdı. Polis bölməsinin əməkdaşları həmçinin mövzuyla bağlı film nümayiş etdirdilər.

TOK "What is Real?" Conference XV

November 4-5-6, 2017 Istanbul - Turkey

## Eyüboğlu High School

# The 15th Annual International Students' ToK Youth and Culture Conference " What is Real ?"






The participants introduced their cultural presentations in front of the large audience. The students informed the audience about the rich culture of Azerbaijan following with the national dance performed by Dunya School students.



The **IBDP students** demonstrated their TOK presentations in the conference.

It was a fruitful experience for our students who shared their TOK skills and knowledge with their peers. It was a kind of reflection for them to develop their critical thinking, social and communication skills.

They discussed TOK questions in different rooms and participated in cultural events organized by Eyuboglu Schools.






Dunya School IBDP2 students together with TOK teacher attended the 15th Annual International Students' TOK Youth and Culture Conference "What is Real?" held in Istanbul, Turkey on November 4-6, 2017.




26-28 October

# IB Global Conference 2017 The Hague, The Netherlands

**THE THEME "INSPIRING COMMUNITIES" HIGHLIGHTED HOW IB SCHOOLS INSPIRE AND ARE INSPIRED, THROUGH EDUCATION RESEARCH, BUILDING COLLABORATIVE NETWORKS, FOCUSING ON LEADERSHIP, DIVERSITY, HIGHER EDUCATION PARTNERSHIP AND INNOVATION.**

The next IB annual conference for Asia, Africa and Middle East was held in the Hague, Netherlands on October 26-28, 2017. The programme coordinators from **Dunya School**, Rana Hasanova (IB DP Coordinator) and Leyla Eminova (IB PYP Coordinator) attended the conference.

The theme "Inspiring Communities" highlighted how IB schools inspire and are inspired, through education research, building collaborative networks, focusing on leadership, diversity, higher education partnership and innovation.

The conference hosted more than **1,500 participants**. The valued input of participants, sponsors, exhibitors and plenary speakers made the conference wonderfully enjoyable and informative.

Sessions varied in topics covering all four IB programmes, and presented useful information and tips for candidate schools.

**The conference stressed the students being at the center of learning, and focused on how to empower students to have full ownership of their own learning, assessment and progress.**

Also, it emphasized to change learning spaces and teaching practices through empowering teacher leadership. All the sessions seeked to share the impact of these changes on student learning, motivation and creativity. Through the sessions the participants had an opportunity to explore how these changes have impacted thinking and learning and to look at the changing roles of teachers and learners.





# Parent Coffee Morning

Researches show that parental involvement in children's education has significant and lasting benefits. Although there is no shared definition of parental involvement, helping parents to become more involved in the life of the school brings more advantages: strengthening home-school links, building enduring partnerships and enhancing the school community.

In order to develop parents' active participation in their children's education, a Parent Coffee Morning was held on November 24, 2017

at Dunya School. The library area was set up for the parents to meet up, chat and meet new people in a friendly environment. It was a great opportunity for the parents/guardians to share experiences with others, to keep up to date with changes and access wider support and advice.







The session was fun and informal. It was organized to be interactive, where the parents got involved in a range of activities. We tried to create an atmosphere of a modern classroom, which is as dynamic as the changing world.

**The purpose of the meeting was to give the parents broader information about the school mission, curriculum and the programme**. The parents first discussed how they wished to see their own kids when they finished schooling. They related their expectations to the requirements of the global world. Then the IB mission statement was introduced, which totally coincided with the parents' expectations.

We further discussed how we might help our kids to see them growing as internationally-minded citizens. The parents were knowledgeable about the IB learner profile attributes. The parents then moved around to find peers from the same grade levels to talk about the current unit their kids were learning at school. They shared their children's reflections over the unit.

Positive parent feedbacks motivated the school administration to further promote these meetings.

**Leyla Eminova**
PYP Coordinator



# KİM TAPAR?!

**AZƏRBAYCANDA YAZILAN İLK ROMAN ROMANIN ADI, MÜƏLLİFİ**

**İLK ÇƏKİLƏN KİNO**



**SUALLARI KİM BİRİNCİ DÜZGÜN CAVABLANDIRARSA ŞƏKLİNİ JURNALIN ÜZ QABIĞINDA DƏRC EDƏCƏYİK!**

**Cavablarla redaksiyaya yaxınlaşın.**

## Salzburg.Austria



# STEFANİ MAZTZER

### AVSTRİYA MƏRKƏZİNİN RƏHBƏRİ

Avstriya mərkəzinin rəhbəri Stefani Maztzer məktəbin alman dili dərsində iştirakm etmişdir. Dərs prosesində şagirdlər kağız üzərində alman dilli ölkələrin qədim geyimi olan **"Dirindl" və "Sederhose"ni** hazırlamışlar.

Xanım Maztzer əyninə **"Dirindl"** geyinərək dərsdə maraqlı və əyləncəli mühit yaratmışdır. Qədim geyimlərin tarixinə, ölçü-biçiminə həsr olunan dərsdə şagirdlər qonaqla alman dilində ünsiyyət qurmuşlar.




Məktəbdə tədris olunan dillərə maraq yaratmaq üçün məktəbə vaxtaşırı dillər üzrə həmin ölkənin mütəxəssisləri dəvət olunur. Belə dərslər praktik danışıq dilini təkmilləşdirmək məqsədi ilə təşkil edilir.







# MÜSTƏQİL İKİDİLLİ MƏKTƏBLƏRİN “MƏKTƏBƏ GEDƏN YOL” ADLI BEYNƏLXALQ KONFRANSI

19-22 NOYABR, 2017
BERLİN, ALMANİYA

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Professor Hamlet İsaxanlı və Dünya məktəbinin təsisçisi,Nailəxanım İsayeva **19-22 noyabr, 2017-ci ildə** Almaniyanın Berlin şəhərində keçirilən **Müstəqil ikidilli məktəblərin “Məktəbə gedən yol”** adlı beynəlxalq konfransda iştirak etmişlər.

Tədbirdə Nailəxanım İsayeva Dünya məktəbi haqqında məlumatla çıxış etmişdir. Professor Hamlet İsaxanlı Xəzər Universiteti və Dünya məktəbinin yaranma səbəbləri və şəraiti haqqında danışmışdır. Həmçinin, o, məktəb konsepsiyası və keyfiyyətİ mövzusunda çıxış etmiş, plenar iclaslardan birinə həmsədrlik etmişdir.

Professor Hamlet İsaxanlı və Nailəxanım İsayeva Lomonosov Berlin məktəbinin işi ilə tanış olmuşlar.





**Azərbaycanın bütün şəhər və rayonlarından fəallığı və intellektual səviyyəsi ilə seçilən, fikirlərini sərbəst şəkildə ifadə edə bilən uşaqlar 2017-ci il noyabr ayının 20-də keçirilən Azərbaycan Uşaqlarının IV Ümumrespublika Forumunda yenidən bir araya gəldilər.**

**FORUMDA DÜNYA MƏKTƏBİNDƏN IX SİNİF ŞAGİRDLƏRİ GÜLARƏ HÜSEYNOVA VƏ NİHAD ƏLƏKBƏRZADƏ İŞTİRAK ETDİ.**

Forumun keçirilməsi Uşaqların müdafiəsi və inkişafına dair qazanılan ən yaxşı təcrübələri, nəzərdən keçirmək, ictimaiyyətin diqqətini bir daha uşaq problemlərinə yönəltmək məqsədi daşıyır. Forumda 380 nəfərə yaxın 6-18 yaş arası uşaq, həmçinin xüsusi qayğıya ehtiyacı olan, sağlamlıq imkanları məhdud olan, valideyin himayəsindən məhrum olmuş, qaçqın və məcburi köçkün ailələrindən olan uşaqlar nümayəndə qismində iştirak edirdilər. Uşaqlara hüquqlarının qorunması və tətbiqi istiqamətində öz problemlərini, onları narahat edən məqamları müzakirə etmək, tövsiyyələri vermək imkan yaradıldı.

Forum çərçivəsində uşaqların əl işlərindən ibarət sərgi və uşaq hüquqlarına dair filmlər nümayiş etdirildi. Hər il olduğu kimi, 2017-ci ildə də öz ənənəsinə sadiq qalan forum iştirakçıları tədbirdən əvvəl Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Şəhidlər xiyabanında ölkəmizin azadlığı və süverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət etdilər.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Heydər Əliyev Fondu və BMT-nin Uşaq Fondunun birgə təşkilatçılığı ilə Azərbaycan Uşaqlarının **IV** Ümumrespublika Forumu keçirilib.










Dövlət Himni ilə açılan forumda ölkə Prezidenti cənab İlham Əliyevin forum iştirakçılarına təbrik məktubu oxunub. Forum çərçivəsində dövlət müəssisələrinin, beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri çıxışlar edib, dövlət və hökumət nümayəndələri uşaqların suallarını cavablandırdılar.

**UŞAQ HÜQUQLARI: İNKİŞAF ÜÇÜN BİRLƏŞƏK**

**TƏHSİLDƏ YENİ STANDARTLAR: ÇAĞIRIŞLAR VƏ BƏRABƏR İMKANLAR**

**UŞAQLARIN İNTERNET TƏHLÜKƏSİZLİYİ**

**SAĞLAMLIĞIN QORUNMASI, SAĞLAM HƏYAT TƏRZI. ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ**

**ASUDƏ VAXTIN SƏMƏRƏLİ TƏŞKİLİ VƏ DƏYƏRLƏNDİRİLMƏSİ**

**UŞAQLARIN ŞƏXSİYYƏT KİMİ FORMALAŞMASINDA AİLƏ VƏ CƏMİYYƏTİN ROLU VƏ MƏSULİYYƏTİ**

**VƏTƏNİ SEVƏK, ONA LAYİQ OLAQ. QARABAĞ HƏQİQƏTLƏRİNİ DÜNYAYA ÇATDIRAQ**

mövzuları üzrə aidiyyəti dövlət orqanlarını təmsil edən ekspertlərin iştirakı ilə qruplarda müzakirələr aparıldı. Uşaqlar bu müzakirələrdə fəal iştirak edib, təkliflər səsləndirdilər.

Sonda forum iştirakçıları adından dövlət başçısına müraciət ünvanlandı. Tədbirdə Azərbaycan uşaqları adından dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara bəyanat, forumun bəyannaməsi qəbul edildi.

**Nihad Ələkbərzadə**
IX sinif şagirdi






ГАРРИ ПОТЕР -сирота, живущий с дядей,тетей и их сыном Дадли-не совсем обычный мальчик: его преследуют странные события, объяснение которым находится в 11-ый день рождения мальчика. Оказывается, Гарри-самый настоящий волшебник,который,как и остальные маги, должен поступить в Хогвартс - школу чародейства, обучение в которой длится семь лет.






# Harry Potter и ФИЛОСОФСКИЙ КАМЕНЬ









Среди участников школьного Книжного Клуба была проведена викторина под названием **«Гарри Поттер и философский камень».** Поклонники творчества Джоан Роулинг получили уникальную возможность окунуться в волшебную атмосферу школы Хогвартс. Представители двух факультетов – Гриффиндор и Слизерин, сражались за кубок победителя. Тематические вопросы, художественный конкурс, пазлы, инсценировки и квиддич определили исход соревнования.

София Вердиева
Классный руководитель



## “ХОЧЕТСЯ ВСЕ ВРЕМЯ УЧИТЬСЯ.”

МУРАД АСАЛИЕВ

Это школа мне нравится. Она отличается от других школ: учителя очень добрые и хорошие, хорошо объясняют уроки. Еда очень вкусная. Моя любимая еда  это суп. Когда я голоден, всегда беру добавку к обеду- котлеты. Я здесь всех учителей люблю. Хочется все время учиться. Наша школа мне очень нравится.



**МУРАД АСАЛИЕВ**
ученик 6-го класса



# SUMQAYIT DÜNYA MƏKTƏBİNDƏ BİR GÜN...

**CƏMİ BİR GÜN SUMQAYIT DÜNYA MƏKTƏBİNDƏ OLDUQ. ŞAGİRDLƏRLƏ GÖRÜŞDÜK. TƏƏSSÜRATLAR HƏM ZƏNGİN, HƏM DƏ MARAQLI İDİ.**



## ELMƏDDİN SƏLİMLİ

5 YAŞINDAN KARATE İLƏ MƏŞĞUL OLUR.

Məşqçisi
Azərbaycanın Əməkdar müəllimi

**RƏFAEL MƏMMƏDOVDUR.**

O bu il Gürcüstanda 15 dövlətlər arasında keçirilən Beynəlxalq turnirdə III yerə layiq görülüb. Elməddin Milli Qəhrəman Mübariz İbrahimovun adına keçirilən möhtəşəm yarışda qızıl medala layiq görülüb! Elməddin bütün məktəb yoldaşlarının və müəllimlərin fəxridir!



**ANAM DEYİR Kİ, SƏN BU MƏKTƏBDƏ OXUMAĞA BAŞLAYANDAN ÇOX DƏYİŞMİSƏN...**

## CAVİDAN MƏMMƏDLİ

**VIII** sinif

Mən DÜNYA məktəbindən çox razıyam. Burada hər şey öz yerindədir. Bizə əlavə dərslər keçirilir. Hamımız etiraf edirik ki, bizim məktəbimiz digər məktəblərlə müqayisədə hər cəhətdən üstündür.

**HƏTTA DEYİRƏM Kİ, DÜNYA MƏKTƏBİ OLMASAYDI, GƏLƏCƏYİMİ TƏSƏVVÜR ETMİRDİM.**

Müəllimlərimdən çox razıyam.
Bu arada, məktəbdə həftənin 3-cü günlərində bizə verilən dovğanı və kartof püresini çox bəyənirəm.



**МНЕ НРАВИТСЯ НАША ШКОЛА. УРОКИ, УЧЕБА, УЧИТЕЛЯ ВСЕ ОЧЕНЬ ХОРОШО.**

## ЭЛЬНУР ДЖАББАРОВ

**Уроки интересные и проводятся очень активно.
Я доволен всем в нашей школе.
В столовой тоже все вкусно.**





УЧЕНИК
5-ГО КЛАССА

## NİGAR HƏSƏNZADƏ

**Məktəbdə təlim-tərbiyə çox ürəyimcədir. Ən çox sevdiyim dərs Riyaziyyat dərsidir. Azərbaycan tarixinə və İngilis dilinə böyük marağım var.
Məktəbimiz bizə verdiyi imkanları ilə, müəllimlərin fərqli dərs vermələri, dərsi izah etmələri digər məktəblərdən fərqlidir və olduqca maraqlıdır.
İdman dərslərini də sevirəm. Müəllimiz də səmimidir.
Məktəbimiz digər məktəblərdən həm də müəllimlərin bizə davranışları ilə fərqlənir.**



**VIII** sinif

Məktəbimizdə dərslər çox maraqlı keçir.Heç sıxılmırıq.Qavramamız üçün şərait yaradılır. Yeməkxanamız da mənim çox xoşuma gəlir. Biz ev yeməkləri yeyirik, təbii qidalanırıq.
Fiziki tərbiyə zalımız o qədər genişdir ki, biz çox rahat şəkildə enerjimizi sərf edirik.
İngilis dili dərsləri burada çox yüksək səviyyədə keçirilir.
Buradakı müəllimlər olduqca savadlıdırlar.
Bizim arzumuz İBO-da oxumaqdır. Bu gələcəkdə xaricdə təhsil almaq üçün daha geniş imkanlar yaradır. Ona görə də mən bu məktəbə oxumaqdan məmnunam.



## NATİQ QASIMOV

**VIII** sinif

## AYXAN MƏMMƏDLİ

Mən bu məktəbə gəlmək, burada oxumaq istəmirdim. Çünki əvvəl oxuduğum məktəbdə dərslərimə diqqət etmirdim və fikirləşirdim ki, burada eyiblərimin üstü açılacaq. Amma tam əksinə oldu. Dərslərimdə irəlilədim. Tarixi xüsisi ilə zəif öyrənirdim. Səbinə Əlibəyli Tarix müəllimimizdir. O məni çox həvəsləndirdi. Məktəbdə hazırda Tarixi ən yaxşı bilənlərdənəm. Məktəbimin müəllimlərinə təşəkkür etmək istəyirəm. Yeməkxanada xalamız bizə əla yeməklər bişirir. Dovğa, kartof püresi, kotleti çox sevirəm. O qədər ikinci porsu yemişəm ki… Ən çox da dovğa olanda…



**VII** sinif



**VII** sinif

**Məktəbimizi çox sevirəm, çox gözəldir. Dərslərə marağım böyükdür. Müəllimlər dərsləri dərinliyinə qədər izah edirlər. Buna görə də dərslərimi yaxşı qavrayıram. Yeməkxanada püreni çox sevirəm.**

**“VALİDEYNLƏRİM DEYİR Kİ, HEÇ OTAĞINDAN ÇIXMIRSAN. BÜTÜN GÜNÜ DƏRSLƏRİNLƏ MƏŞĞULSAN. YAMAN HƏVƏS YARANIB SƏNDƏ…”**

**LAMİYƏ NURİ**



## VAQİF AXUNDLU

**Burada müsbət cəhətlər çoxdur. Bütün dərslər eyni səviyyədə, yüksək formada keçirilir. İstər Riyaziyyat, istər İngilis dili və bütün fənlər… Məktəb yeməkxanasında yarpaq dolmasını çox sevirəm.**

**VII** sinif

## ЭЛЬДАР ШИРАЛИЕВ

ученик 3-го класса

Здесь хорошие уроки, лучше чем в других школах. Одноклассники очень дружные. Мне больше всего нравятся как проходят наши уроки. Я люблю классную руководительницу. У нас уроки проходят очень интересно. И еще мне в столовой очень нравится чечевичный суп.






**SUMQAYIT DÜNYA MƏKTƏBİ-MƏKTƏBƏQƏDƏR BÖLÜMÜNDƏ BALACALAR BÖYÜK HƏVƏSLƏ İNTELLEKTUAL OYUNLARIN, AXTARIŞLARIN İŞTİRAKÇISI OLURLAR... RƏQƏMLƏRİN SİRLƏRİNİ ÖYRƏNİR, ƏLİFBANIN, SƏSLƏRİN, HƏRFLƏRİN MARAĞLI ALƏMİNƏ VARIRLAR...**



# ŞAHMAT və HƏYAT

Ən amansız, qəddar, mərhəmətli, təhlükəli və hətta müəyyən məqamlarda köməkçi rolunu oynayan zaman- insan beynində inanılmaz fikirlər və təzadlar yaratma qabiliyyətinə malikdir.
Bütün bunları ,
64 xana üzərində yer alan, möhtəşəm düzülüş şəklində fiqurların bir-biri ilə mübarizəsini əks etdirən, onları idarə edən dərin düşüncənin olduğu - şahmat oyununda görmək mümkündür.
Dünyanın ən qədim idman növlərindən olan şahmat artıq intellektual sahədə böyük uğurlar qazanır. Keçmişə nəzər salsaq, görərik ki, o zamandan indiki dövrə qədər istər intellektual istərsə də, psixoloji inkişaf baxımından insanlarda hazırlıq səviyyəsi (məntiqi və intuisiya) yüksəlib.

**RUBİNŞTEYN-** SAKİTLİK

**ALYOXİN -** YÜKSƏLİŞ

**NİMTSOVİÇ -** ÖZÜNƏ İNAM

**RETİ-** HİYLƏ

**LASKER -** DÜZGÜNLÜK



Şahmatla məşğul olan insanlarda bu, öz üstünlüklərini göstərməkdədir. İnsan beyninin yaddaş tutumu böyükdür və o çox həcmdə material hesablamağa qadirdir. Şahmatçı üçün vacib nədir? – sualı illərlə şahmatı sevənləri və onunla ciddi məşğul olanları düşündürüb. Rubinşteyn-sakitlik, Alyoxin –yüksəliş, Nimcoviç-özünə inam, Reti-hiylə, Lasker – düzgünlük kimi fikirlər səsləndirmişdir. Bütün bunlar nisbi olsa da, reallığı əks etdirirdi. Bəzən insanlar fikirli, narahat və ehtiyatsız olurlar. Təbii ki, bu nüansları birdən-birə aradan qaldırmaq çətin olur, amma şahmat strategiyasına azca dərindən yanaşsaq, çıxış yollarının olduğunu görərik.

O dərin strategiya insanın xarakterinə əhəmiyyətli dərəcədə təsir edir və onu gələcək inkişaf üçün formalaşdırır.
Bütün bunlarsız yaşamaq mümkündür, yalnız edə biləcəyimiz səhvləri və atacağımıız addımlarımızdakı əminliyi yaradacaq qüvvənin olmamağı, narahat edici faktdır.
Dünyaca məşhur simalar öz fəaliyyətlərində şahmata xüsusi önəm və yer ayırmışlar. Bunlardan Albert Eynshteyn , Lev Tolstoy, Çarli Çaplin və s. göstərmək olar. Məşhurların şahmata olan diqqəti və yanaşması təsadüfi deyildi.
Qeyd etdiyimiz kimi, bu strategiya və taktikaların nəticələri həmişə insanın iş və yaradıcılıq fəaliyyətində özünü mükəmməl şəkildə əks etdirir. Şahmatı təkcə taxta arxasında deyil hətta yazışma vasitəsilə oynamaq da mümkündür. Bu zaman lövhəyə ehtiyac olmur.

Psixoloqlar, şahmatın yaddaşa çox böyükköməklik göstərdiyini və çətin anlarda, seçimlər zamanı insan beynində yaradıcı ideyalar formalaşmasını təmin etdiyini deyirlər. Hətta artıq şahmatı tibb sahəsində, müalicəsi mümkünsüz hesab olunan –Altsheymer- xəstəliyinə qarşı vasitə kimi məsləhət görürlər.

Amerikada yerləşən Vebster universiteti nəzdindəki şahmat institutunun rəhbəri, beynəlxalq qrossmeyster Syuzan Polgar hər il iyun ayının 22-də "Altsheymerə mat!" adlı şahmat marafonu təşkil edirlər. Həmin gün bütün professional şahmatçılar və şahmatı sevənlər səhərdən axşama qədər şahmat oynayırlar. Burada məqsəd, ictimaiyyətin diqqətini xəstəliyə qarşı yönələn pozitiv bir qüvvə kimi cəlb etmək, insan beyninin daim formada olub, inkişafına dəstək verməkdir. Təsadüfi deyil ki, müəyyən araşdırmalar və sorğulardan sonra altsheymerə qarşı mübarizə assosiasiyasının nümayəndələri bu xəstəlikdən əziyyət çəkən insanları şahmat oynayıb, düşünməyə çağırırlar.
Qeyd olunur ki, bu zaman beyinin zəifləməsinin qarşısı alınır və o, aktiv fəaliyyət keçir.

İnsan beynindəki təsəvvür, taxtanı bütün 64 xanası ilə bərabər tam şəkildə əks etdirir və gələcək gedişləri hesablayır. Tarixə nəzər salsaq, görərik ki, bu cür oynanılmış oyunlar az vaxt aparmayıb və hətta rekord vaxt göstəricisi ilə özünün aktuallığını saxlayır.
Təəccüblü olsada ən uzun şahmat oyunu tarixdə yarım əsri ötüb, yəni 53 il ərzində oynanılıb.
Bu rekord Cənubi Afrika Respublikasından olan həkim Reli Van Xaysstin tərəfindən qoyulub. O öz kolleqası ilə İkinci Dünya Müharibəsi illərindən etibarən oynamağa başlamış (1945) və bu illər ərzində bir-birilərinə poçt vasitəsi ilə 1272 sayda göndəriş etmişlər. Oyun 1999-cu ildə yekunlaşmağa məcbur olub, səbəb kimi isə rəqibin CAR-dakı Stellenboş UNI-nın mühəndislik fakültəsinin dekanı doktor Ştrazaxerin dünyasını dəyişməsi göstərilir. Beləliklə, şahmat strategiyasının özəllikləri bunlarla məhdudlaşmır.

**Elşad Rzayev**
Şahmat müəllimi,
FİDE ustası

Yəqin mənimlə razılaşarsınız ki, azyaşlıların çoxu böyüklərdən daha cəsarətlidirlər və bir işi başa çatdırmağa daha çox tələsirlər. Kiçik qəlblərində böyük mərhəmət, xeyirxahlıq yaşatmağı bacaran, həmişə pozitiv, aldıqları sevgini daha da böyüdərək hamıyla paylaşmağı sevən qəlbiaçıq, təmiz ruhlu balalarımız-sizlər bizim gələcəyə olan ümidimizsiniz! Hər biriniz bir istedadsınız, sadəcə istedadınızı aşkara çıxarmaq üçün kiçik bir cəhd edilməlidir. Bu "cəhd" işini uğurla yerinə yetirənlər də biz müəllimlərik! Sözümüz bacarıq və istedadını "Dünya" dərgisinin səhifələrində paylaşmaq istəyənlərədir! Artıq sizi də dinləmək, tanımaq sırası gəldi!

Bizə qoşulun, özünüzü geniş auditoriyalara tanıdın!

İlk qaranquşlarımız **AYLA VƏ MÜŞGÜNAZ** kimi!

Tədris etdiyim ədəbiyyat fənni vasitəsilə bu iki istedadlı qızı tanıdım. Onlara verdiyim ilk tapşırığın öhdəsindən də əla gəldilər! Hansı tapşırıq deyə maraqlanırsınızsa, o zaman aşağıdakı əsərləri oxuyun. Bilirəm ki, siz də mənimlə razılaşacaqsınız. Mənə isə ağıllı şagirdlərimə daha böyük uğurlar arzulamaq qalır.

Mədinə Karahan
Ədəbiyyat müəllimi




MÜŞGÜNAZ ŞƏRİFLİ
V sinif

## MEŞƏLƏRİN DOSTLUĞU

İki meşə var idi. Onlar qonşu idilər. Birinci meşə gözəl ağaclarla dolu idi, meşəyə aid nə istəsən burada var idi. Amma ikinci meşə təəsüf ki, çox baxımsız idi. Ağaclar seyrək, yaşıllıq az olduğuna görə heyvanlar da buranı sevmirdilər.

Bir gün ikinci meşənin kralı dedi ki, gedin o biri meşəni dağıdın. Onlar belə də edirlər,bütün meşə, ağaclar, otlar, çiçəklər məhv olur.Meşə sakinləri dilxor olurlar. Lakin kralları onları sakitləşdirib dedi ki, sizin yadınızdan çıxıb ki, bizdə sehirli dən var?

O dəni götürüb bütün torpaqlara səpin. Meşədəkilər sevinərək deyiləni yerinə yetirirlər. Hər yer yenidən gözəlləşir, yaşıllaşır.

O biri meşənin paxıl kralı bunu görür və heyvanlara deyir ki, o dəni götürüb mənə gətirməlisiniz. Onlar dəni oğurlayıb gəlirlər. Kral bu dəni götürüb meşə boyu səpdirir. Amma heç bir şey alınmır. Meşənin kralı yaman pərt olur. Bunun səbəbini meşəsinin yaşlı heyvanından soruşanda, o, cavab verir ki, bu dən sadəcə mehriban heyvanların yaşadığı, xeyirxah və xoşniyyətli meşələrdə bitir. Bu sözlər meşənin kralına yaman təsir edir və anlayır ki, mehribanlıq və dostluq olmayan yerdə yaxşı heç nə olmaz. Qonşu meşənin kralından üzr istəyir və hər iki meşədə əmin – amanlıq hökm sürür. Bu əhvalatdan sonra meşələr daha da yaşıllaşır və böyüyür.


Mikayıl Mustafayev
BAĞÇA VƏ MƏKTƏBƏQƏDƏR HAZIRLIQ




MƏMMƏD
ƏHMƏDOV
IV sinif


Aytac
Cəfərova
IV sinif

ŞAGİRDİN SÖZÜ- GƏLƏCƏYİN ÖZÜ!

